Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Elektron mühitdə uşaq və yeniyetmələrin mütaliəsi

Elektron mühitdə uşaq və yeniyetmələrin mütaliəsi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı-2023

Tərtibçi: Nərmin Qədəmullazadə

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

Elektron mühitdə uşaq və yeniyetmələrin mütaliəsi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Qədəmullazadə; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.-15s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

İlk yazılı ədəbi nümunələrin toplusu kimi kitab əvəzsiz sərvətlərimizdən biridir. Bu qiymətli sərvətimizi qoruyan ilk kitabxanalar eramızdan əvvəl yaradılmışdır. Uzun müddət ərzində onun sosial funksiyaları xeyli dəyişmişdi. İlk kitabxananın məqsədi yalnız sənədlərin saxlanılması idi. Yarandığı gündən indiyə qədər kitabxana bir neçə mərhələdən keçmiş və hazırda informasiya və mədəni komponentləri özündə birləşdirən müasir tipli kitabxana olmuşdur. Müasir kitabxananın əsas məqsədi cəmiyyətin intelektual mədəni inkişafına kömək etmək, onu insanların vasitəsilə təkmilləşdirməkdən ibarətdir.

Müasir dövrümüzü internetsiz təsəvvür etmək qeyri-mümkündür. Azərbaycanda və onun hüdudlarından kənar olan ölkələrdə yaşayan insanlar, o cümlədən yeniyetmələr, gənclər arasında asan, əlverişli ünsiyyət vasitəsi kimi internet geniş imkanlar açmaqdadır. Artıq adi kitabları elektron vəsaitlər əvəz etməkdədir. Belə kitabları əlçatan etmək üçün kitabxanalar kampüter və internet ilə təchiz olunub.

Uşaqlar və yeniyetmələrin mütaliəsi, dünyagörüşünün formalaşması, qlobal informasiya mühiti ilə səmərəli təması proseslərinin uğurla nəticələnməsi Azərbaycan dövlətinin kitabxana – informasiya sahəsində gələcəyə yönəlmiş inkişaf konsepsiyasının tərkib hissələrindən biridir. Ona görə də möhtərəm prezidentimiz İlham Əliyevin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə dövlət proqramı"nın təsdiq edilməsi barədə sərəncam vermiş və bu proqramda kitabxana – informasiya sahəsində geniş plan hazırlanmışdır.

Mütaliə insanı kamilləşdirir, onun nitq və qabiliyyətini inkişaf etdirir. Mütaliə adamı bilikli, söhbətcil, hazırcavab edir. Biz mütaliə mədəniyyəti, oxu mədəniyyəti dedikdə hər hansı konkret fəaliyyət üzrə mədəniyyət nəzərdə tuturuq ki, bu da əsasən oxucuların informasiya əldə etməsi və bu informasiyanı yeni biliyə çevirmək qabiliyyətidir. Uşaqlarda mütaliə vərdişlərinin erkən yaşlarda aşılanması olduqca vacib amillərdən biridir. Çünki çox mütaliə edən uşaqların intellekti daha sürətlə inkişaf edir. Bəli, kitabxanaçıda əsas keyfiyyətlərdən biri oxucuda mütaliəyə maraq yaratmaq, onu düzgün istiqamətləndirməkdir.

Uşaq və yeniyetmələrin mənəvi, intellektual və estetik inkişafında kitabın və mütaliənin rolu danılmazdır. Onlar insanları maarifləndirir, ümumi mədəni səviyyəni yüksəldir, dünyagörüşünü artırır. Böyüməkdə olan uşaqlara, yeniyetmələrə, gənc nəslin nümayəndələrinə izah etmək lazımdır ki, bütün biliklərin və mənəvi dəyərlərin ilkin mənbəyi kitablardır.

Uşaqlar və yeniyetmələrin informasiya texnologiyalarını mənimsəyən ən fəal qruplar olmasını qeyd etmək olar. Demək olar ki, artıq başqa həyat tərzi, dəyərləri, informasiya mühitində davranış modelləri olan yeni nəsil yetişmişdir.

Milli – mənəvi dəyərlərimizin təkcə qorunub gələcək nəsillərə çatdırılmasında deyil, eyni zamanda, onların beynəlxalq aləmə qısa vaxt ərzində təqdim edilməsində elektron kitabxanaların böyük rolu vardır.

# Elektron mühitdə kitabxanalar

Azərbaycanda kitabçılıq sənətinin inkişaf dövrü eramızın XI əsrinə aid edilsə də, əslində onun tarixi çox-çox qədimlərə gedib çıxır. Yaşadığımız bölgədə ilk kitabxanalar çox uzaq tarixdə dövlət qurumlarının yarandığı dövrlərdə meydana gəlmişdir. Tarixdən bəlli olduğu kimi, V əsrdə Qafqaz Albaniyasında 52 hərfdən ibarət alban əlifbası tərtib edilmişdi. Beləliklə, bir çox kitablar alban dilinə tərcümə edilmiş, kilsə və məktəblərdə kiçik kitabxanalar təşkil olunmuşdur. Azərbaycanda İslam dini yayıldıqdan sonra isə məscid və mədrəsələrdə kitabxanalar meydana gəldi və kitab mədəniyyəti geniş yayılmağa başladı.

*“Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir”.*

***Heydər Əliyev***

Amma bu inkişaf XI əsrdə sözün əsl mənasında dönüş mərhələsinə qədəm qoyub. Bu dövrdən etibarən yaranan nüfuzlu əsərlərin qorunub saxlanılması üçün kitabxanaların sayı da artmağa başlayıb. İlk şəxsi kitabxanalara Bəhmənyarın Kitabxanası, Xətib Təbrizinin kitabxanası, Nəsrəddin Tusi və “Seyyidəna” kitabxanası, Rəşidəddin və “Rəşidiyyə” kitabxanasını misal çəkmək olar.

Uşaqlar və yeniyetmələrin mütaliəsi, dünyagörüşünün formalaşması, qlobal informasiya mühiti ilə səmərəli təması proseslərinin uğurla nəticələnməsi Azərbaycan dövlətinin kitabxana – informasiya sahəsində gələcəyə yönəlmiş inkişaf konsepsiyasının tərkib hissələrindən biridir. Ona görə də

möhtərəm prezidentimiz İlham Əliyevin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə dövlət proqramı"nın təsdiq edilməsi barədə sərəncam vermiş və bu proqramda kitabxana – informasiya sahəsində geniş plan hazırlanmışdır. Uşaqlar və yeniyetmələrin informasiya texnologiyalarını mənimsəyən ən fəal qruplar olmasını qeyd etmək olar. Demək olar ki, artıq başqa həyat tərzi, dəyərləri, informasiya mühitində davranış modelləri olan yeni nəsil yetişmişdir.



Elektron kitabxanaların təşəkkülü və inkişafı həm elmi mühit, həm nəşriyyatlar, tibb və təhsil müəssisələri, muzeylər və başqa fəaliyyət sahələri üçün də maraqlıdır. Həmin fəaliyyət sahələrinə uyğun yaradılmış elektron kitabxana tipləri mətn sənədləri ilə çevik əməliyyatlar həyata keçirən xüsusi cəhətlərinə görə fərqlənir. Elektron kitabxanalarla ənənəvi kitabxanaların həm fərqli, həm də oxşar cəhətləri var. Fərqlər:

- İnformasiya daşıyıcısına, tərkibinə;
- İnformasiya məhsulunun formalaşmasının texnoloji proseslərinə, mühafizə və təqdimetmə üsullarına;
- İstifadəçilərə xidmət məqsədinin xarakteri və həlli yoluna;
- Hüquqi və struktur asılılığına;
- İnformasiya məhsuluna mülkiyyət, surətini çıxarma və yayma hüququ;

- İnformasiya resurslarından istifadə üsullarına və s. görədir, bu siyahını davam etdirmək də olar.



Oxşar cəhətlərə gəldikdə isə demək olar ki, onlar bir – birini tamamlayır. Elektron kitabxanalar professional kitabxana-informasiya mütəxəssisi təcrübəsindən, eyni zamanda kitabxana sahəsində mövcud beynəlxalq standartların tələblərindən istifadə etməyə bilməz. Bütün bunlara baxmayaraq hər iki - ənənəvi və elektron kitabxanaların hüquqi, təşkilati və texnoloji yaxınlıq xüsusiyyətlərinə baxmayaraq onlar cəmiyyətin müxtəlif informasiya strukturlarıdır və onların problemlərinə də differensial baxılmalıdır.

**Mütaliənin həyatımızdakı rolu**

*Ulu Öndərimiz həmişə gənclərə mütaliə etməyi, biliklərini artırmağı tövsiyə etmişdir. Ümummilli lider Heydər Əliyevin bütün elmlərə dərindən yiyələnməyinin hər birimiz dəfələrlə şahidi olmuşuq. Bir sıra xarici jurnalistlərin Ulu Öndərə verdikləri - "Siz hər bir sahənin mütəxəssisi ilə onların özü kimi mühakimə yürüdə bilirsiniz. Bu qabiliyyət Sizdə haradandır?" - sualına dahi rəhbər belə cavab verirdi ki, hər sahəyə dair çoxlu sayda kitab oxumaq və zəngin həyat təcrübəsinə malik olmaq lazımdır.*

Bəli, mütaliə hər baxımdan bizə fayda verir. Əsl təhsil yalnız mütaliə ilə əldə edilir. İnsan bütün ömrü boyu mütaliə etməlidir. İnsanın mənəvi dünyasının zənginləşməsində və yetkin şəxsiyyət kimi formalaşmasında mütaliənin rolu əvəzsizdir. Mütaliə insan üçün uğurlu həyat yolunun

başlanğıcıdır. Filosof Spenserə görə, bəşəriyyət həmişə ancaq şəxsi mütaliə yolu ilə müvəffəqiyyətlə inkişaf etmişdir. Bütün bunlar bir daha təsdiq edir ki, mütaliə bütün biliklərin əsasıdır.

Mütaliə etmədən düşüncə formalaşa bilməz. Əgər bizim uşaqlar bu gün kitab oxumasalar onlar həyatda heç vaxt uğur qazana bilməyəcəklər. Mütaliə nəticəsində şagirdlər öz fikirlərini sərbəst ifadə edə bilirlər. Mütaliə şagirdlərdə mədəniyyətin yüksəldilməsinə aparan bir yoldur. Mütaliə biliyi genişləndirməklə bərabər, həm də insana məmnunluq hissləri bəxş edir. İnsan həyatında mütaliənin rolu əvəzolunmazdır.

Böyük mütəfəkkir şair Nizami Gəncəvinin əsərlərində mütaliənin əhəmiyyəti haqqında müdrik fikirləri ondan sonra gələn Azərbaycan mütəfəkkirlərinə böyük təsir göztərmişdir. İnsanın ucalığını onun elmi səviyyəsində axtaran Nizami hər hansı bir insanın başqasına üstün gəlməsini qalibin elmi səviyyəsi ilə izah edir:



Elmlə, hünərlə! Başqa cür heç kəs,
Heç kəsə üstünlük eləyə bilməz!

- deyən şair kamilliyin mənbəyini elm və bilik axtarışında görür.

Kitabı, mütaliəni yüksək qiymətləndirən şairin özü böyük mütaliəçi olmuşdur. Dünya ədəbiyyatının incisi sayılan Nizami Gəncəvi “Xəmsə”si onun müəllifinin mütaliəsinin, elmi axtarışlarının nəticəsidir. Şair beş poemasında kifayət qədər əsər adı çəkir ki, bunlar hamısı Nizaminin mütaliə obyekti olmuşdur.

Dünyada nə qədər kitab var belə,

Çalışıb əlləşib, gətirdim ələ,
Oxudum, oxudum sonra da vardım,
Hər gizli xəzinədən bir dürr çıxardım
- deyən şair özünün mütaliəsinin məzmunu haqda aydın təsəvvür yaradır.

*Məşhur filosof Sokrata görə - mütaliə cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, həmin cəmiyyət xoşbəxt olar. Ona görə də biz mütaliəni sevməli və təkcə sevməli yox, ona vərdiş etməyi bacarmalıyıq. Ona görə də, "Gəlin oxuyaq, dünyamızı, tariximizi, özümüzü kəşf edək".*

Bir sözlə, mütaliə insanların dünyagörüşünün formalaşmasında ən vacib amillərdən biridir. Mütaliəyə ayırdığımız vaxt heç vaxt hədər olmayacaq, əksinə, bizə yeniliklər qazandıracaq.



## Dahi şəxsiyyətlərin mütaliə və kitabxana haqqında söylədikləri fikirlər

Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir.

**Heydər Əliyev**

Mütaliə insanları bilikli, söhbətcil və hazırcavab edir.

**Frensis Bekon**
*Filosof*

Kitabxana insan ruhunun bütün zənginliklərinin xəzinəsidir.

**Q. V. Leybtnis**

Mütaliə təfəkkürü dərinləşdirir.

**M.İ.Kalinin**
*Dövlət xadimi*

Kitabxanalar insanlığın tək etibarlı və qalıcı olan yaddaşıdır.

**Artur Şobenhauer**

Adamlar mütaliədən əl çəkəndə fikirləşməkdən də qalırlar.

**Deni Didro**
*Filosof*

İnsan bütün ömrü boyu mütaliə etməlidir.

**A.V.Lunaçarski**
*Siyasi xadim*

Uşaq Kitabxanalarının işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən, internetdən istifadə oxucuların son informasiya ilə məlumatlandırılmasına xidmət edir. Azərbaycan Respublikasında müxtəlif tipli kitabxanaların daxil olduğu geniş kitabxana-informasiya şəbəkəsi mövcuddur. Bu şəbəkəyə kütləvi, elmi-texniki, uşaq, gənclər, tədris və musiqi məktəblərinin kitabxanaları, eləcədə müxtəlif dövlət qurumlarının tabeliyində olan kitabxanalar daxildir. Çünki kitabxana vətəndaşların informasiya tələbatını ödəmək üçün dünya biliklərinə açılan pəncərə, fasiləsiz təhsilin inkişafında imkanlı zəmin yaradan, mədəni

dəyərlərin mühafizəsini təmin edən və nəsillərdən-nəsillərə çatdıran bir elm müəssisəsidir. Məhz kitabxanalar vasitəsilə cəmiyyətin intellektual potensialının formalaşması və inkişafı kimi funksiyalar yerinə yetirilir. Ümumiyyətlə, kitabxana-informasiya şəbəkəsinin inkişafı əhalinin mədəni səviyyəsinin yüksəlməsinə, onların fasiləsiz təhsilə və informasiyaya olan tələbatının ödənilməsinə imkan yaradır.

İnformasiyalaşdırılmış cəmiyyətin formalaşması və tərəqqisi mütaliə prosesinin nəticəsidir. Cəmiyyətin bütün inkişaf istiqamətlərini insan təfəkkürü formalaşdırmaqla yanaşı təkmilləşdirir. Mütaliə isə insan təfəkkürünü zənginləşdirir, düşünmə qabiliyyətini artırır. Yəni kompyuter texnologiyalarının tətbiqi, ənənəvi informasiya mənbələrin elektron daşıyıcılara köçürülməsi, CD-ROM texnologiyaların tətbiqi, informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin həyata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edirlər.

**Ədəbiyyat siyahısı**

**Abdullayeva N**. Azərbaycan dilində internet resursları, elektron və interaktiv dərsliklər yaradılmalıdır // Palitra. - 2013. - 9 iyul. - № 121. - S. 10.

**Azərbaycan kitabxanalarında** elektron kataloq və **elektron** resurslar bazası yaradılır // Mədəniyyət. - 2010. - 5 fevral. - № 9. - S. 5.

**Babaşlı M**. Müasir dövrdə mütaliə mədəniyyəti və formalaşması yolları // Füyuzat. - 2018. - № 3. - S. 36-39.

**Əbilov A**. Kağız, yoxsa elektron kitab // Ədəbiyyat qəzeti. - 2014. - 17 oktyabr. - № 40. - S. 13.

**Əbilov A.** Şəbəkə (virtual) ədəbiyyat, İnternet (elektron) kitabxana, yazıçı saytları // Ədəbiyyat qəzeti. - 2011. 22 iyul. - № 27. - S. 4. ; 29 iyul. - № 28. - S.4.

e-book : **elektron** kitab nədir // Göy qurşağı. - 2010. - № 3(May-iyun). - S. 4, 5.

**Əhmədov E**. ABŞ-da uşaq mütaliəsi // Mədəni Maarif. - 2010. - № 12. - S. 58-62.

**Əhmədov E.** Qlobal informasiya məkanı : müasir kitabxanaşünaslıqda mütaliənin yeni təzahürləri // Mədəni-maarif. - 2009. - №4. - S. 64-68.

**Əhmədova A**. Mütaliənin sosial məzmunu və şəxsiyyətin formalaşmasında onun yeri // Kitabxana.az. - 2010. - № 4. - S. 20-24.

**Əhmədova S**. İnformasiya dövrü və mütaliə problemi // Mədəni həyat. - 2012. - № 9. - S. 23, 24.

Elektron **kitablar oxumaq** tərzimizi dəyişdiribmi? // Kaspi. - 2016. - 6 fevral. - № 20. - S. 11.

**Gülər.** "Kitabxanaya uşaqların cəlbi: Mütaliə haqqında düşüncələr" : F.B. Köçərli ad. Respublika Uşaq Kitabxanasında bu mövzuya aid seminar keçirildi // Mədəniyyət. - 2010. - 29 dekabr. - № 92. - S. 13.

**Hüseynova A**. Mütaliə mədəniyyətinin formalaşdırılması // Azərbaycan məktəbi. - 2015. - № 2. - S. 96-97.

**Hüseynzadə F**. İradə Əlili: Gənclər mütaliəyə çox vaxt ayırmalıdırlar // Palitra. - 2014. - № 140. - S. 11.

**İsmixanova T**. Elektron kitabxanaların qurulması ilə bağlı monitorinq və treyninqlər keçirilib // Azərbaycan Müəllimi. - 2016. - 23 aprel. - № 15. - S. 11.

**Mahmudov M**. Müasir dövrdə mütaliə // Naşir. - 2015. - № 2. - S. 86-87.

**Məhərrəmova T**. Mütaliə mədəniyyətini necə bərpa etməli? : İntellekti daha asan zənginləşdirmək üsulu ortaya çıxarsa... // Kaspi. - 2019. - 12 oktyabr. - № 188. - S. 10.

**Məmmədbəyov N**. Dərsdənkənar oxu vasitəsilə məktəblilərin estetik hisslərinin inkişaf etdirilməsi // Azərbaycan məktəbi. - 2012. - № 5. - S. 105-107.

**Məmmədov T**. Müasir informasiya texnologiyaları və vasitələri təhsildə // Azərbaycan məktəbi. - 2013. - № 1. - S. 49-56.

**Müşfiq Ş**. Yeni dövrün qaçılmaz fenomeni: elektron kitab // 525-ci qəzet. - 2020. - 7 iyul. - № 62. - S. 10.

**Muxtar E.** Kitab və oxu mədəniyyətimiz bu gün // Azərbaycan. - 2009. - № 12. - S. 159-162.

**Nərimanoğlu M**. Elektron kitabxanalar oxu mədəniyyətinin inkişafında mühüm vasitədir // Azərbaycan : qəzet. - 2016. - 11 sentyabr. - № 200. - S. 5.

**Nərimanoğlu M**. Elektron kitabxanalar: mahiyyəti və əhəmiyyəti // Azərbaycan. - 2011. - 19 iyun. - № 131. - S. 4.

**Nigar.** Kitabxanalar elektron resurslarla zənginləşir // Palitra. - 2016. - 25 noyabr. - № 212. - S. 15.

**Novruzova S**. Elektron kitabxana reallıq və perspektivlər // Mədəni həyat. - 2012. - № 12. - S. 56.

**Nurlu M**. Elektron mühit və elektron əxlaq // Mədəni Həyat. - 2013. - № 6. - S. 64-65.

**Qəmbərova Ş**. Mütaliənin uşaqların mənəvi inkişafında böyük rolu var // Palitra. - 2014. - 4 oktyabr. - № 181. - S. 11.

**Rüstəmov Ə.** Elektron kitab və onun istifadəsinin psixoloji məsələləri // Mədəni Həyat. - 2013. - may. - № 5. - S. 94-97.

**Rzayev S**. Oxucuların mütaliə sorğularının ödənilməsi sahəsində Respublika Elmi-Texniki Kitabxanasının məqsədyönlü fəaliyyəti // Ktabxana.az. - 2011. - № 6. - S. 15-18.

**Şabanzadə Ş.** Oxumaq lazımdır : mütaliə haqqında // İşıq. - 2012. - № 1. - S. 30-31.

**Sevinc.** Elektron kitabların sayı artırılıb / Sevinc // Həftə içi. - 2018. - 13 aprel. - № 65. - S. 6.

**Tahirov K**. Milli Kitabxana Milli Elektron Kitabxananın yaradılmasını vacib sayır / söhbətləşdi M. Əyyublu // Palitra. - 2019. - 8 yanvar. - № 3. - S. 10.

**Xəlilov V**. Mütaliə mədəniyyətinin inkişafı mühüm pedaqoji problem kimi // Kurikulum. - 2015. - № 3. - S. 12-17

**Elektron mühitdə uşaq və yeniyetmələrin mütaliəsi**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərmin Qədəmullazadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**